*AcademyGate Publishing*
*p-ISSN 2616-6879; e-ISSN 2617-751X*

**UDC:** 31.
**LBC:** 60.52.; 60.54
**MJ №** 392
10.33864/2617-751X.2025.v8.i8.82-89

# THE ATTITUDE OF THE FRENCH MEDIA TOWARDS THE AZERBAIJAN-ARMENIA MEETING MEDIATED BY THE USA

**Zeynab Kazimova***

**Abstract.** The meeting held at the White House under the mediation of the United States is considered a significant step toward the resolution of the long-lasting Armenia-Azerbaijan conflict and an important stage in the post-conflict period following the Second Karabakh War, particularly in the context of Azerbaijan's extensive efforts to ensure peace in the South Caucasus. On August 8, 2025, in Washington, President of Azerbaijan Ilham Aliyev, Prime Minister of Armenia Nikol Pashinyan, and U.S. President Donald Trump came together to sign a historic peace declaration. The main objective of the declaration is to put an end to the Armenia–Azerbaijan conflict, cease hostilities, and pave the way for the normalization of diplomatic relations. The Armenia-Azerbaijan conflict, which began in the late 20th century, has been one of the most complex and long-standing conflicts in the South Caucasus. Azerbaijan's victory in the 44-day Second Karabakh War marked a new stage in which Baku's main priority became the establishment of lasting peace in the region. This article analyzes how the French media covered the Azerbaijan-Armenia meetings mediated by the United States. The aim is to identify how the French press portrays Azerbaijan and Armenia, how the role of the United States is presented, and how France's interests are reflected in this discourse. The analysis reveals that the French media at times portrays U.S. mediation efforts as those of a rival power, depicts Azerbaijan as the "strong side" and a target of criticism, while Armenia-traditionally under French patronage-is represented as a "weaker" actor under pressure. In this regard, the French media's discourse is important for understanding the perception of the region not only in France but also in Europe as a whole.

**Keywords:** Azerbaijan, Armenia, USA, France, media, mediation, Armenia-Azerbaijan conflict, Second Karabakh War, French media

---

* PhD Candidate at Baku Slavic University; Baku, Azerbaijan
E-mail: zeynabyusif@gmail.com
https://orcid.org/0009-0008-4561-0829
**To cite this article:** Kazimova, Z. [2025]. THE ATTITUDE OF THE FRENCH MEDIA TOWARDS THE AZERBAIJAN-ARMENIA MEETING MEDIATED BY THE USA. *"Metafizika" journal, 8*(8), pp.82-89.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i8.82-89

***Article history:***
*Received: 25.07.2025*
*Accepted: 22.08.2025*
*Published: 01.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**УДК:** 31.
**ББК:** 60.52.; 60.54
**MJ №** 392
10.33864/2617-751X.2025.v8.i8.82-89

# ОТНОШЕНИЕ ФРАНЦУЗСКИХ СМИ К ВСТРЕЧЕ АЗЕРБАЙДЖАНА И АРМЕНИИ ПРИ ПОСРЕДНИЧЕСТВЕ США

**Зейнаб Казымова***

**Абстракт.** Встреча, прошедшая в Белом доме при посредничестве США, рассматривается как значительный шаг к завершению многолетнего армяно-азербайджанского конфликта, а также как важный этап в постконфликтный период после Второй Карабахской войны, особенно в контексте усилий Азербайджана по обеспечению мира на Южном Кавказе. 8 августа 2025 года в Вашингтоне президент Азербайджана Ильхам Алиев, премьер-министр Армении Никол Пашинян и президент США Дональд Трамп подписали историческую мирную декларацию. Основная цель документа- окончательно завершить армяно-азербайджанский конфликт, положить конец военным действиям и направить процесс к нормализации дипломатических отношений. Армяно-азербайджанский конфликт, начавшийся в конце XX века, стал одним из самых сложных и продолжительных в регионе Южного Кавказа. Победа Азербайджана в 44-дневной Второй Карабахской войне определила новый этап, в котором ключевой целью официального Баку стало установление прочного мира в регионе. В данной статье анализируется освещение встреч Азербайджана и Армении при посредничестве США во французских СМИ. Цель исследования- определить, каким образом французская пресса представляет Азербайджан и Армению, как описывается роль США и какие интересы Франции отражаются в этом контексте. Анализ показывает, что французские СМИ иногда трактуют посредническую деятельность США как деятельность конкурирующей силы, изображают Азербайджан как «сильную сторону» и делают его объектом критики, в то время как Армения, традиционно находящаяся под покровительством Франции, представляется как «слабый» и «под давлением» актор. Подобный дискурс французских СМИ имеет важное значение для понимания восприятия региона как во Франции, так и в Европе в целом.

**Ключевые слова:** Азербайджан, Армения, США, Франция, СМИ, посредничество, армяно-азербайджанский конфликт, Вторая Карабахская война, французские СМИ

---

* Диссертант Бакинского Славянского Университета; Баку, Азербайджан
E-mail: zeynabyusif@gmail.com
https://orcid.org/0009-0008-4561-0829

**Цитировать статью:** Казымова, З. [2025]. ОТНОШЕНИЕ ФРАНЦУЗСКИХ СМИ К ВСТРЕЧЕ АЗЕРБАЙДЖАНА И АРМЕНИИ ПРИ ПОСРЕДНИЧЕСТВЕ США. *Журнал «Metafizika»*, *8*(8), c.82-89.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i8.82-89

***История статьи:***
*Статья поступила в редакцию: 25.07.2025*
*Отправлена на доработку: 22.08.2025*
*Принята для печати: 01.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

*“Metafizika” Journal*
*Vol 8, issue 8, serial 36, 2025. pp.82-89*
*AcademyGate Publishing*
*p-ISSN 2616-6879; e-ISSN 2617-751X*

**UOT:** 31.
**KBT:** 60.52.; 60.54
**MJ №** 392
10.33864/2617-751X.2025.v8.i8.82-89

# FRANSA MEDİASINDA ABŞ-NİN VASİTƏÇİLİYİ İLƏ AZƏRBAYCAN-ERMƏNİSTAN GÖRÜŞÜNƏ MÜNASİBƏT

**Zeynab Kazımova***

**Abstrakt.** ABŞ-nin vasitəçiliyi ilə Ağ Evdə baş tutan görüş uzun müddət davam edən Ermənistan-Azərbaycan münaqişəsinin başa çatması, II Qarabağ müharibəsindən sonra post-münaqişə dövründə tərəflər üçün vacib olan, xüsusən Azərbaycanın geniş səyləri ilə Cənubi Qafqazda sülhün təmin olunması prosesinə doğru atılmış böyük bir addım hesab olunur. 8 avqust 2025-ci ildə Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistan Baş naziri Nikol Paşinyan və ABŞ Prezidenti Donald Trump bir araya gələrək tarixi sülh bəyannaməsi imzaladılar. Bəyannamənin əsas məqsədi Ermənistan-Azərbaycan münaqişəsini başa çatdırmaq, hərbi əməliyyatlara son qoymaq və diplomatik əlaqələrin normallaşdırılmasına yönəlmişdir. Ermənistan-Azərbaycan münaqişəsi XX əsrin sonlarından etibarən Cənubi Qafqaz regionunda davam edən ən mürəkkəb və uzunmüddətli konfliktlərdən biri olmuşdur. 44 günlük II Qarabağ müharibəsində Azərbaycan zəfər qazanmış və post-müharibə dönəmində Azərbaycan tərəfindən əsas hədəf regionda sülhün təmin olunmasına yönəlmişdir. Bu məqalədə Fransa mediasında ABŞ vasitəçiliyi ilə Azərbaycan-Ermənistan görüşlərinin işıqlandırılması təhlil edilir. Məqsəd Fransa mətbuatının diskursunda Azərbaycanın və Ermənistanın təsvir formalarını, ABŞ-ın rolunun təqdimatını və Fransanın maraqlarının necə əks olunduğunu müəyyənləşdirməkdir. Təhlil nəticəsində məlum olur ki, Fransa mediası ABŞ-ın vasitəçilik fəaliyyətini bəzən rəqib güc kimi təqdim edir, Azərbaycanı isə daha çox “güclü tərəf” kimi təsvir edərək tənqid hədəfinə çevirir. Fransanın Cənubi Qafqazda himayə etdiyi Ermənistan isə fransız mediasında “zəif” və “təzyiq altında olan” aktor kimi göstərilir. Bu aspektdə fransız mediasının təhlili həm Fransa, həm də ümumilikdə, Avropa ictimaiyyətinin regiona baxışını anlamaq üçün əhəmiyyətlidir.

**Açar sözlər:** Azərbaycan, Ermənistan, ABŞ, Fransa, media, vasitəçilik, Ermənistan-Azərbaycan münaqişəsi, II Qarabağ müharibəsi, Fransa mediası

* Bakı Slavyan Universitetinin dissertantı; Bakı, Azərbaycan
E-mail: zeynabyusif@gmail.com
https://orcid.org/0009-0008-4561-0829

**Məqaləyə istinad:** Kazımova, Z. [2025]. FRANSA MEDİASINDA ABŞ-NİN VASİTƏÇİLİYİ İLƏ AZƏRBAYCAN-ERMƏNİSTAN GÖRÜŞÜNƏ MÜNASİBƏT. *“Metafizika” jurnalı, 8*(8), səh.82-89. https://doi.org/10.33864/2617-751X.2025.v8.i8.82-89

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 25.07.2025*
*Təkrar işlənməyə göndərilmişdir: 22.08.2025*
*Çapa qəbul edilmişdir: 01.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

2020-ci ilin payızında baş vermiş 44 günlük müharibənin nəticələri Cənubi Qafqaz regionunda yeni geosiyasi reallıqlar formalaşdırdı. Azərbaycanın öz ərazi bütövlüyünü təmin etməsi ilə nəticələnən bu müharibə beynəlxalq güclərin regiona marağını daha da artırdı. Müharibədən sonra aparılan sülh prosesində Rusiya, Avropa İttifaqı (Aİ) və Amerika Birləşmiş Ştatları (ABŞ) fəal vasitəçilər kimi çıxış etməyə başlamışdır. Eyni zamanda, son illərdə ABŞ-ın vasitəçiliyi ilə Azərbaycan və Ermənistan arasında bir sıra görüşlər təşkil olunmuşdur. Dövlət katibi Entoni Blinkenin təşəbbüsü ilə keçirilən Vaşinqton görüşləri, həmçinin telefon diplomatiyası bu çərçivədə atılan addımlar olmuşdur.

Fransa isə ənənəvi olaraq Ermənistanın əsas dəstəkçilərindən biri kimi çıxış etmişdir. Fransanın daxili siyasi gündəmi və güclü erməni diasporu bu ölkənin mövqeyinə ciddi təsir göstərmiş, ABŞ-nin regiondakı fəallığının artması isə onun vasitəçilik iddialarını zəiflətmişdir. Bu aspektdə yaranan gərginlik Fransa mediasının diskursunda da öz əksini tapmışdır. Belə ki, Fransanın aparıcı media orqanlarında dərc edilmiş müxtəlif materialların təhlili onu deməyə əsas verir ki, bu ölkənin nüfuzlu media qurumları olan “Le Monde”, “Le Figaro” qəzetləri, “France24” televiziya kanalı, “Radio France Internationale (RFI)” radiosu, eləcə də aylıq “Courrier International” siyasi jurnalındakı məqalələrdə təqdim olunan başlıqlar, istifadə olunan ifadələr, habelə mediada Azərbaycan və Ermənistanın təqdimatı, həmçinin ABŞ-ın vasitəçilik rolu diqqət çəkmiş və araşdırılmışdır. Bu kontekstdə, ABŞ-nin vasitəçiliyi ilə Vaşinqton görüşünün Fransa mediasında işıqlandırılmasına nəzər yetirsək, bu görüşlərin əsasən bir neçə istiqamətdə işıqlandırılmasını müşahidə edə bilərik. Bu aspektdə, mediada Azərbaycanın və Ermənistanın təqdimatı və münasibət, ABŞ-nin rolunun təqdimatı və Fransanın maraqlarının əks olunmasını nəzərdən keçirmək olar.

## 2.Mediada Azərbaycanın və Ermənistanın təqdimatı və münasibət

Azərbaycan çox vaxt “qalib tərəf”, “tələbkar” və “güc siyasəti aparan” aktor kimi təqdim olunur. “Le Monde” qəzeti yazır ki, “Vaşinqton danışıqlarında Bakının mövqeyi dominant idi və Ermənistan böyük təzyiq altında qaldı” [1]. Bu yanaşma Azərbaycanın diplomatik uğurlarını neytral təsvir etməkdən daha çox tənqidi çərçivəyə salır və fransız mediasının Azərbaycanın uğurlarına qısqanclıqla yanaşdığını ortaya çıxarır.

Azərbaycandan fərqli olaraq, Ermənistan “çox zəif”, “təcrid olunmuş” və “təzyiq altında qalan” ölkə kimi göstərilir. “France24” telekanalı danışıqlardan sonra qeyd etmişdir ki, “Paşinyan hökuməti beynəlxalq dəstək axtarışındadır, lakin ABŞ-də kompromisə getməyə məcbur oldu” [2]. Bir daha müşahidə etmək olur ki, Fransa mediasının hər zaman Ermənistanı, bir qayda olaraq,

“köməyə ehtiyacı olan xristian ölkə”, erməniləri isə “yazıq, qurban” kimi təqdimatı yenə davam etmişdir.

**3.ABŞ-nin rolunun təqdimatı və Fransanın maraqlarının əks olunması**

ABŞ-nin vasitəçiliyi müsbət qiymətləndirilməklə bərabər, həm də rəqib güc kimi təqdim edilir. “RFI” radiosu yazır ki, “Vaşinqton Qafqazda diplomatik liderliyini möhkəmləndirmək istəyir” [3]. Belə demək olar ki, ABŞ-nin Cənubi Qafqazda sülhün əldə olunmasında və sülh müqaviləsinin imzalanması istiqamətində fəallığı Fransanın vasitəçilik ambisiyaları ilə toqquşmuşdur. Media materiallarında açıq şəkildə bildirilməsə də, sətiraltı olaraq Fransanın prosesdən kənarda qalması, lakin öz nüfuzunu qorumağa çalışması vurğulanır. Bu nöqteyi nəzərdən, baxmayaraq ki, Fransa regionda nüfuzunu itirmək istəmir, lakin ABŞ-nin fəallığı fonunda geri planda qalmışdır. Qeyd edilməlidir ki, Fransa proseslərdə geri qalsa da, bununla belə, Cənubi Qafqazdakı maraqlarını davam etdirməkdə israrlı olduğu açıq-aşkardır.

“France24” və “Agence France Presse (AFP)” bu görüşü Cənubi Qafqazda stabilliyə və dialoqa yol açan addım kimi qiymətləndirmiş, regionda iqtisadi əməkdaşlığın yeni dövrünün vəd olunduğunu qeyd etmişdir [2, 6]. “Le Monde” isə Fransa diplomatiyasının regionda sülh təşəbbüslərinə dəstəyini vurğulamaqla ABS görüşünü “önəmli diplomatik addım” adlandırmışdır [1].

“Le Figaro” qəzeti öz səhifələrində Donald Trumpın vasitəçilik rolunu önə çıxarmış və Ağ Evdəki görüşün əhəmiyyətini işıqlandırmışdır [4]. “L’Express” qəzeti də “Fransa Trumpın dəstəyi ilə irəliyə atılmış qətiyyətli addımı alqışlayır” yazaraq, ABŞ-ın geosiyasi nüfuzunu artırmaq məqsədini, həmçinin Fransa və Avropanın regiondakı balans rolunu təhlil etmişdir. Məqalədə Rusiya, İran və Fransanın mövqeyi geniş analiz olunmuş, eləcə də Türkiyə Xarici İşlər Nazirliyinin “Azərbaycan və Ermənistan arasında davamlı sülhün bərqərar olması istiqamətində əldə edilən irəliləyişi alqışlayan” bəyanatına istinad olunmuşdur [5].

Fransa mediasında görüşün strateji və geosiyasi aspektləri, o cümlədən ABŞ-ın vasitəçilik rolu və TRIPP/Zəngəzur koridoru əsas diqqət mərkəzində olmuşdur. “RFI” və “Le Monde” TRIPP/Zəngəzur koridorunun “regionda strateji və iqtisadi təsirin dəyişməsini göstərdiyini” [3, 4] vurğulamışdır. Belə demək olar ki, Fransa mediası regionda bütün diplomatik prosesləri diqqətlə izləmişdir və kifayət qədər media materialları, məqalələr, təhlillər yayımlamışdır.

Ümumiyyətlə, Fransa mediası beynəlxalq münaqişələrin işıqlandırılmasında mühüm rol oynayır. Xüsusilə, yuxarıda adları sadalanan nüfuzlu media qurumları Cənubi Qafqazda baş verən hadisələri siyasi, humanitar və strateji kontekstdə təqdim etmişlər. Məqalələrin ümumi təhlili onu göstərir ki, ABŞ-ın vasitəçiliyi ilə sülh prosesləri, həmçinin TRIPP/Zəngəzur koridoru kimi strateji layihələr regionun geosiyasi balansını dəyişdirən önəmli faktor kimi

qiymətləndirilir. Fransa mediasının reaksiyası həm sülh təşəbbüsü, həm də Avropa və ABŞ-ın regional rolu ilə bağlı olmuş, sülh və əməkdaşlıq mesajı verildiyi bildirilmişdir.

**4.Nəticə**

Göründüyü kimi, ABŞ-nin vasitəçiliyi ilə Azərbaycan-Ermənistan görüşünə Fransa mediasında yanaşma, ümumi nöqteyi-nəzərdən, sülh təşəbbüsü və geosiyasi balans perspektivi kimi qiymətləndirilmişdir. Media materiallarının təhlilindən aydın olur ki, Fransa regiondakı diplomatik proseslərə ayrıca diqqət yetirir, ABŞ-nin vasitəçilik rolunu önəmli hesab edir və strateji layihələrə diqqət çəkir. Bu nəticələr göstərir ki, Fransa mediasının mövqeyi təkcə informasiya çatdırmaq funksiyası daşımır, həm də Fransanın regiondakı maraqlarını əks etdirən siyasi diskurs formalaşdırır.

Bununla yanaşı, mediada təqdim olunan materialların təhlilinə əsasən belə qənaətə gəlmək olar ki, Fransa mediası ABŞ-nin vasitəçiliyi ilə Azərbaycan–Ermənistan görüşlərini neytral informasiya çərçivəsindən daha çox siyasi maraqlar kontekstində təqdim etmişdir. Azərbaycan daha çox tənqidi istiqamətdə təqdim olunmuş, Ermənistan isə zəif və köməyə ehtiyacı olan tərəf kimi göstərilmişdir.

Bununla yanaşı, son illərdə Azərbaycan-Fransa arasında qarşılıqlı münasibətlərdə yaranmış gərginliklərin fonunda Fransa mediasının bu görüşü işıqlandırarkən beynəlxalq media müstəvisində ölkəmizə qarşı fransız mediasının apardığı qaralama kampaniyası ilə münasibətlərdəki soyuqluğun daha da dərinləşdirilməsi cəhdini sezmək olur. Əslində neytral mövqe tutmalı olan media birtərəfli informasiya təqdimatı ilə jurnalistikanın prinsipləri çərçivəsindən kənara çıxır. Eyni zamanda, media materiallarda ABŞ-ın vasitəçilik fəaliyyətinin, Cənubi Qafqaza marağının Fransanın regiondakı maraqları ilə uzlaşmadığına işarə edilərək, ABŞ və Fransa müqayisə olunaraq “rəqib diplomatiya” kimi təqdim edilmişdir. Bütün bu yanaşmalara əsasən, fransız mediasının Ermənistana ənənəvi rəğbət hissi bu ölkənin “kiçik bacı qayğısı”ndan qaynaqlanan dəstəkdən doğaraq Fransanın Ermənistanla olan tarixi və diaspor əlaqələri, ermənilərin bu ölkədə geniş lobbiçilik fəaliyyətinin olması, eləcə də Fransanın ABŞ ilə geosiyasi rəqabəti ilə izah oluna bilər.

**5.ƏDƏBİYYAT**


1. Le Monde. (2025, August 9). *L’Arménie et l’Azerbaïdjan s’accordent pour mettre fin à leur conflit, sous l’égide de Donald Trump.* https://www.lemonde.fr/international/article/2025/08/09/l-armenie-et-l-azerbaidjan-s-accordent-pour-mettre-fin-a-leur-conflit-sous-l-egide-de-donald-trump_6627564_3210.html
2. France24. (2025, August 8). *Armenia, Azerbaijan to end “all fighting forever” at White House summit, Trump says.*

https://www.france24.com/en/asia-pacific/20250808-armenia-azerbaijan-to-sign-historic-peace-signing-in-white-house-visit-says-trump
3. RFI. (2025, August 8). *Armenian and Azeri leaders to meet Trump in Washington for peace talks.* https://www.rfi.fr/en/international/20250808-armenian-and-azeri-leaders-to-meet-trump-in-washington-for-peace-talks
4. Le Figaro. (2025, August 10). *L'Arménie et l'Azerbaïdjan signent un accord de paix sous l'impulsion de Donald Trump.* https://www.lefigaro.fr/international/l-armenie-et-l-azerbaidjan-signent-un-accord-de-paix-sous-l-impulsion-de-donald-trump-20250810
5. L'Express. (2025, August 10). *L'Arménie et l'Azerbaïdjan s'engagent, selon Donald Trump, à "cesser définitivement" tout conflit.* https://www.lexpress.fr/monde/asie/larmenie-et-lazerbaidjan-sengagent-selon-trump-a-cesser-definitivement-tout-conflit-LDEJCAOOBVCKND4KJPDB7TD4HU/
6. AFP. (2025, August 8). *L'Arménie et l'Azerbaïdjan attendus vendredi à Washington pour signer un accord de paix, annonce Donald Trump.* https://www.lemonde.fr/international/article/2025/08/08/l-armenie-et-l-azerbaidjan-attendus-vendredi-a-washington-pour-signer-un-accord-de-paix-annonce-donald-trump_6627345_3210.html

## REFERENCES

1. Le Monde. (2025, August 9). *Armenia and Azerbaijan agree to end their conflict under the auspices of Donald Trump.* https://www.lemonde.fr/international/article/2025/08/09/l-armenie-et-l-azerbaidjan-s-accordent-pour-mettre-fin-a-leur-conflit-sous-l-egide-de-donald-trump_6627564_3210.html (in French)
2. France24. (2025, August 8). *Armenia, Azerbaijan to end "all fighting forever" at White House summit, Trump says.* https://www.france24.com/en/asia-pacific/20250808-armenia-azerbaijan-to-sign-historic-peace-signing-in-white-house-visit-says-trump (in English)
3. RFI. (2025, August 8). *Armenian and Azeri leaders to meet Trump in Washington for peace talks.* https://www.rfi.fr/en/international/20250808-armenian-and-azeri-leaders-to-meet-trump-in-washington-for-peace-talks (in English)
4. Le Figaro. (2025, August 10). *Armenia and Azerbaijan sign a peace agreement under the initiative of Donald Trump.* https://www.lefigaro.fr/international/l-armenie-et-l-azerbaidjan-signent-un-accord-de-paix-sous-l-impulsion-de-donald-trump-20250810 (in French)

**5.** L’Express. (2025, August 10). *Armenia and Azerbaijan commit, according to Donald Trump, to “permanently cease” all conflict.* https://www.lexpress.fr/monde/asie/larmenie-et-lazerbaidjan-sengagent-selon-trump-a-cesser-definitivement-tout-conflit-LDEJCAOOBVCKND4KJPDB7TD4HU/ (in French)

**6.** AFP. (2025, August 8). *Armenia and Azerbaijan expected Friday in Washington to sign a peace agreement, announces Donald Trump.* https://www.lemonde.fr/international/article/2025/08/08/l-armenie-et-l-azerbaidjan-attendus-vendredi-a-washington-pour-signer-un-accord-de-paix-annonce-donald-trump_6627345_3210.html (in French)